# Əmək yarmarkası

"Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununa, Qəbələ rayon İcra Hakimiyyəti Başçısının 2013-cü il üçün təsdiq etdiyi "Ərazi Məşğulluq Proqramı"na, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin qrafikinə uyğun olaraq Qəbələ rayon Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə 19 sentyabr 2013-cü il tarixdə işsiz və işaxtaran vətəndaşların səmərəli məşğulluğunu təmin etmək məqsədilə əmək yarmarkası keçirildi.

Yarmarkanı giriş sözü ilə açan Məşğulluq Mərkəzinin direktoru Elxan Səlimov ölkə rəhbərliyinin həyata keçirdiyi düşünülmüş iqtisadi siyasət nəticəsində Azərbaycan iqtisadiyyatının davamlı inkişafından və bu proseslərə Dövlət Məşğulluq Xidmətinin verdiyi töhfələrdən danışdı. Elxan Səlimov bildirdi ki, ölkənin davamlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən mühüm dövlət proqramları nəticəsində makroiqtisadi göstəricilər ilbəil artır, böyük infrastruktur layihələri icra olunur, Respublikanın bütün bölgələrində yeni yaradılan iş yerlərinin



sayı durmadan artır. Bütün bunlar təbii ki, əhalinin məşğulluq imkanlarının artmasına xidmət edir.



Rayon icra hakimiyyətinin nümayəndəsi Fəxrəddin Bağırov, Dövlət Məşğulluq Xidmətinin nümayəndəsi Kamil Həsənov, DİİXİHİ Qəbələ Rayon Komitəsinin sədri, əmək veteranı Fərman Hacıyev və başqaları çıxış edərək əmək yarmarkasının keçirilməsinin bugünkü əhəmiyyətindən, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının işsiz əhalinin işlə təmin edilməsi, yoxsulluğun aradan qaldırılması sahəsində qarşıya qoyduğu vəzifələrdən danışdı. Sonra yarmarkanın işinə start verildi. İşçi qrupu ayrı-ayrı idarə və müəssisələrə işə düzəlmək istəyən vətəndaşlara göndəriş vərəqələrinin verilməsinə başladı.

Yarmarkaya hazırlıq dövründə aparılan genişmiqyaslı təşkilati işlərin, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri nəticəsində bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işsiz və işaxtaran vətəndaşların fəal iştirakı təmin edildi. Belə ki, görülən işlərin nəticəsi olaraq rayon ərazisində fəaliyyət göstərən 44 müəssisə və təşkilat 329 boş iş yeri ilə yarmarkada iştirak edirdi. Yarmarkada iştirak edən 472 nəfər işaxtaran vətəndaşlardan 98 nəfərinə münasib işlərə göndəriş verildi.

Tədbir günün ikinci yarısına qədər davam etdi.

**Şöhrət SÜLEYMANOV.**
**Fotolar S. Umuyevindir.**

# «QƏBƏLƏ 2003–2013: HƏDƏFLƏR, İNKİŞAF, NƏTİCƏLƏR» KİTABI ÇAPDAN ÇIXMIŞDIR

Bu günlərdə İqtisadi İnkişaf Nazirliyinin dəstəyi ilə 160 səhifəlik **«Qəbələ 2003—2013: hədəflər, inkişaf, nəticələr»** kitabı çapdan çıxmışdır. Kitab yağlı ofset kağızında və yüksək keyfiyyətlə çap edilmişdir.

Kitabın cildinin iç üzündə ümummilli lider Heydər Əliyevin Azərbaycan bayrağı önündə şəkli, 1-ci səhifəsində onun «Azərbaycan dünyaya günəş kimi doğacaq»— kəlamı dərc olunmuşdur. 2-ci səhifədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin **«Bizim iqtisadi göstəricilərimiz dünya miqyasında ən gözəl göstəricilərdir. Bizim iqtisadi inkişafımız dünya miqyasında ən sürətlidir. Təkcə son 10 ilin yekunlarına baxmaq kifayətdir. Azərbaycanda yaşanan inkişaf dünyada çox nadir hallarda müşahidə edilir—həm siyasi, iqtisadi, həm energetika, mədəniyyət sahələrində»** sitatı, 3-cü səhifədə cənab Prezidentin Azərbaycan bayrağı önündə portret şəkli verilmişdir. 4—6-cı səhifələrdə Azərbaycanın 10 il ərzində əldə etdiyi qısa iqtisadi göstəricilər, 8—9-cu səhifələrdə isə Qəbələnin ərazisi, yaşayış məntəqələri, əhalisi haqqında məlumat çap edilmişdir. Daha sonrakı səhifələrdə isə Prezidentin Qəbələ səfərlərindən, ən mühüm sosial obyektlərdən, istehsal müəssisələrindən, yeni və müasir yol tikintilərindən, turizmin inkişafına dair tikintilərdən, xidmət obyektlərindən, habelə digər sahələrdən şəkillər və məlumatlar dərc olunmuşdur.

Ən vacib məsələ budur ki, kitabla tanış olanlar son 10 ildə Qəbələdə gedən sosial-iqtisadi inkişafla, sürətli tərəqqi ilə ətraflı tanış olur, əldə edilən böyük uğurlar haqqında məlumat alırlar. Yaxşı olar ki, oxucu yerli nümayəndəliklər vasitəsilə əhali arasında pulsuz paylanan kitabı özü əldə edib tanış olsun.

**Nadir ATAKİŞİYEV.**

## Futbol

# «Qəbələ» liderdir

Ölkə çempionatının VI turunda «Qəbələ» turnir cədvəlinə liderlik edən AZAL-ı onun öz meydançasında 2:1 hesablı məğlubiyyətə uğradaraq yarış cədvəlində üçüncü yerdə qərarlaşdı.

Həmin turda «Neftçi» «İnter»ə 3:1, «Xəzər Lənkəran» «Bakı»ya 2:1, «Simurq» «Sumqayıt»a 3:1 hesabı ilə qalib gəldi. «Rəvan» «Qarabağ»la heç-heçə oynadı—1:1.

Ötən həftə baş tutan VII turda isə «Qəbələ» əsl fədakarlıq göstərdi. İlk dəqiqədən təşəbbüsü ələ alan komandamız qarşılaşdığı «Rəvan»ın qapısından 9 və 11-ci dəqiqələrində dalbadal iki top vuraraq irəli çıxdı. 42-ci dəqiqədə daha bir top vuran həmyerlilərimiz yekunda 3:0 hesablı qələbə ilə 15 xal toplayaraq yarış cədvəlində 1-ci yerə çıxdı və liderliyi ələ aldı.

Turun digər oyunları isə belə nəticələnmişdir: «Qarabağ»—«Simurq»—0:0, «İnter»—«Bakı»—2:2. AZAL—«Xəzər Lənkəran»—1:3, «Neftçi»—«Sumqayıt»—0:0.

**Miri RƏHİMOV.**

**Turnir cədvəli**
**VII tur**

| | |
|---|---|
| 1. «Qəbələ» | 15 xal |
| 2. «Qarabağ» | 14 xal |
| 3. «Neftçi» | 14 xal |
| 4. AZAL | 12 xal |
| 5. «Simurq» | 11 xal |
| 6. «Bakı» | 10 xal |
| 7.«Xəzər-L» | 9 xal |
| 8. «Sumqayıt» | 5 xal |
| 9. «İnter» | 4 xal |
| 10. «Rəvan» | 4 xal |

**ALLAH RƏHMƏT ELƏSİN**

Rayon mərkəzi xəstəxanasının kollektivi, xəstəxananın baş həkimi **Sabir Bayramova,** dayısı

**ƏLİSGƏR KİŞİNİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«NTEV» MMC Qəbələ ticarət kompleksinin kollektivi iş yoldaşları **Vüqar Atakişiyevə,** atası

**ÇİNGİZ KİŞİNİN**

vəfatı ilə əlaqədar başsağlığı verir.

## ELAN

Osmanov Süleyman Qəhrəman oğluna məxsus Qəmərvan kəndindəki evə 1993-cü ilin noyabr ayında verilmiş inventar nömrəsi 174 A olan Fərdi yaşayış fonduna daxil olan **yaşayış evinin texniki pasportu itdiyi üçün** etibarsız sayılır.

## ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun1998-ci il tarixli 11 saylı qərarla Uludaş kənd sakini Eldarova Firuzə Paşa qızının və ailə üzvlərinin adına verilmiş JN-245 F № li (kodu 40615038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Məsul növbətçi*
*A. C. Cəlilov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.